*Niyazxan Səfərli*

***Xocalı müsibəti***

20 Yanvar nəqarətı...
Son Xocalı müsibəti!
İnsanlığın fəlakəti-
Son Xocalı müsibəti...
Kafirlərin kin, dəhşəti,
Son Xocalı müsibəti!
Hayla rusun cinayəti –
Son Xocalı müsibəti!
Şərin vicdan səfaləti –
Son Xocalı müsibəti!

Bir dövlətdə yaşasaq da,
Eşitmədi ruslar bizi...
Haqsıza "haqq" qazandırıb
Yersiz kəsdi sözümüzü.
Ermənıyə silah verib,
Qılıncladı körpəmizi.
20 Yanvar qırğınında...
Tar-mar etdi ölkəmizi !
Tükənmədi şər xisləti –
Son Xocalı müsibəti!

Bu qırğınla qurtarmadı...
İblislərin tor qurumu!
Xocalıda üzə çıxdı,
Qatillərin soyqırımı!
Üç yüz altmış altıncı "polk",
Açdı ölüm uçurumu!
Bir şəhəri viran qoydu
Canilərin bu hücumu!
Dərdə saldı ədaləti,
Son Xocalı müsibəti!

Dörd tərəfdən mühasirə...
Məngənədə qaldı şəhər!
Tankın, topun nərəsindən
Haray çəkdi səyyarələr!

Belə müdhiş bir cinayət
Görməmişdir hələ bəşər...
Süngülərə taxılmışdı
Dilsiz, məsum südəmərlər!
Allahsızlıq qiyaməti...
Son Xocalı müsibəti!

İmamların müsibəti,
Bu qırğından yalan oldu!
Bir gecənin zülmətində
Bir türk eli viran oldu!
Qatil "kaftar sürüləri" –
Meyitlərlə qalan oldu...
Parçalanan cəsədlərə
Nə hakim, nə divan oldu!
İnsanlığın həqarəti –
Son Xocalı müsibəti!

Niyə susur həqarətə,
"Demokratiya" dəllalları?
Onlara çox sərfəlimi
Müsəlmanın qan bazarı!
Riyalarda itib-batıb...
Avropanın etibarı!
Boş get-gəllə dərdimizi
Tərpətsin onlar barı!
Budur Qərbin ləyaqəti –
Son Xocalı müsibəti!

Ay Niyazxan, hay sal, qalxsın
O taylılar, bu taylılar!
Arzxamızda dayaq olsun
Ulu Tanrı, pərvərdigar!
Yağılara divan tutsun,
Qisas alsın ər oğullar!
Millətimin taleyindən,
Qoy silinsin qayğı, qübar!
Lənətlənsin şər xisləti!
Son Xocalı müsibəti -
Rus-erməni cinayəti!!!

*Səfərli N. Xocalı müsibəti : şeir // Təzadlar. – 2007. – 20 fevral. – S.15.*